# MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT

## (MƏSLƏHƏTÇİ XİDMƏTLƏRİ – MƏSLƏHƏTÇİ TƏŞKİLAT SEÇİMİ)

***Azərbaycan Respublikası Təhsil Nazirliyi***

***Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə***

***Kredit Nö.: 4394AZ***

Azərbaycan HökumətiTəhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (bundan sonra TSİİL) xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti almışdır. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulmuşdur.

**Xidmətlərin məqsədi:** TSİİL daxilində icra olunan işlər və layihənin nəticələrinin əldə olunması istiqamətində nail olunan irəliləyişin qiymətləndirilməsi məqsədi ilə tədqiqatın həyata keçirilməsi nəzərdə tutulur.

**Xidmətlərin icra müddəti:** dekabr 2014-cü il– dekabr 2015-ci il

Azərbaycan Respublikasının Təhsil Nazirliyi qeyd olunan tapşırığın həyata keçirilməsində iştirak etmək istəyən məsləhətçi təşkilatları xidmətlərin göstərilməsinə maraqlarını ifadə etməyə dəvət edir . Xidmətlərə maraq göstərən məsləhətçi təşkilatlar müvafiq ixtisas tələblərinə və təcrübəyə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri təqdim etməlidirlər:

· müraciət məktubu;

· yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;

· əsas heyət haqqında məlumat;

· nizamnamə.

**Məsləhətçi təşkilatların ixtisas uyğunluğunu və təcrübəsini qiymətləndirmək üçün meyarlar:**

· Sorğuların hazırlanması və əhali arasında sorğuların keçirilməsi sahəsində təcrübə;

· Təhsil sektorunda tədqiqatlar/araşdırmalar üzrə təcrübə;

· Beynəlxalq donorlar tərəfindən maliyyələşdirilən layihələr ilə iş təcrübəsi.

Məsləhətçi təşkilatlar ixtisas uyğunluğunu gücləndirmək məqsədilə digər təşkilatlarla birgə müəssisə və yaxud sub-məsləhətçi formasında assosiasiya yarada bilərlər.

Məsləhətçi təşkilatların seçimi Dünya Bankının “ Borcalanlar tərəfindən Məsləhətçilərin Seçimi və İşə Götürülməsi Qaydaları ”nda (2004-cü ilin may ayında nəşr edilmiş, 2006-cı ilin oktyabr ayında düzəliş edilmiş Qaydalar) əks olunan *Məsləhətçinin Keyfiyyət Göstəriciləri üzrə Seçim* metodu ilə aparılacaqdır. Xidmətlərə maraq göstərən məsləhətçi təşkilatlardan xahiş olunur ki, qeyd olunan Qaydaların *1.9 paraqrafına (Maraqların Ziddiyyəti) diqqət yetirsinlər*.

Maraqların İfadəsi yazılı şəkildə **05 sentyabr 2014-cü il** tarixinədək aşağıdakı ünvana təqdim edilməlidir:


Layihənin Əlaqələndirmə Qrupu,

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,

Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

AZ1025, Bakı şəhəri, Nobel prospekti, 15.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: (+99 412) 488 66 47/48; faks: (+99 412) 488 66 49.

Email: rustamov@edu.gov.az


Əlavə məlumatları iş günləri ərzində saat 09:00-dan 18:00-dək eyni ünvandan əldə etmək olar.